**UOT 338.481.31; JEL: Z 32; Z38**

***Arzu Alim qızı HÜSEYN***
***Azərbaycan Turizm və Menecment Universiteti***
***i.f.d., dosent, “Menecment” kafedrasının müdiri***
***E-mail: a.huseyn@atmu.edu.az***

# AZƏRBAYCAN-TÜRKİYƏ ARASINDA VİZA LƏĞVİNİN TURİZMİN İNKİŞAFINA TƏSİRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında vizanın ləğv edilməsinin, o cümlədən biometrik şəxsiyyət vəsiqəsi ilə gediş-gəlişə icazənin verilməsinin turizmin inkişafına təsirini öyrənməkdir.

**Tədqiqatın metodologiyası** – məqalənin hazırlanmasında müqayisəli təhlil, ümumiləşdirmə metodlarından istifadə olunmuş, Bakı və Ankara hava limanlarında turistlər arasında sorğu keçirilmiş və əldə edilmiş nəticələr təhlil olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – alınmış nəticələrdən iki ölkə arasında turizmin inkişafı ilə bağlı praktiki problemlərin həll olunmasında istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – 2019-cu ildə Azərbaycanın Türkiyə vətəndaşları üçün vizanı ləğv etməsi, 2021-ci ilin aprel ayından yeni nəsil biometrik şəxsiyyət vəsiqəsi ilə gediş-gəlişə icazənin verilməsinin ölkəmizə Türkiyədən gələn turistlərin sayının artmasına səbəb olduğu müəyyənləşmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Azərbaycanla Türkiyə arasında yeni şəxsiyyət vəsiqəsi ilə gediş-gəlişə icazə verilməsindən sonra bu sahədə yerinə yetirilən ilk tədqiqat işidir. İki ölkə arasında qarşılıqlı olaraq gediş-gəlişə icazənin verilməsinin turizmin inkişafına təsiri qiymətləndirilmişdir. Bu tədbirlərin Türkiyədən Azərbaycana gələn turistlərin sayına necə təsir etdiyini ölçmək üçün sorğu keçirilmişdir. Toplanan sorğu məlumatlarının təhlili ilə hər iki dövlət tərəfindən atılan addımların turizm sahəsinin inkişafında oynadığı rol müəyyənləşdirilmiş və bu sektorun inkişafı ilə bağlı elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr verilmişdir.

***Açar sözlər: yeni nəsil biometrik şəxsiyyət vəsiqəsi, turizm, pandemiya, turizm gəlirləri, xərclər.***

## *Giriş*

Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasındakı iqtisadi əlaqələrin, o cümlədən turizmin inkişafı strateji əhəmiyyətə malikdir. Pandemiyadan öncəki dövrdə, yəni 2019-cu ildə Azərbaycana gələn turistlərin 10 faizini Türkiyə vətəndaşları, Türkiyəyə gedənlərin 11 faizini isə Azərbaycan vətəndaşları təşkil etmişdir. Azərbaycan Respublikasında turizmin inkişafı hökumətin prioritetlərinə daxildir və bu sektorun inkişafına yönəlmiş əməli fəaliyyətin nəticəsində ölkəmizə turizm məqsədilə gələn vətəndaşların sayı dinamik olaraq artmışdır. Xüsusən də 2000-ci ildən bəri icra edilən dövlət proqramları, strateji yol xəritəsi, həyata keçirilən layihələr ölkənin turizm potensialından daha effektiv istifadə etmək üçün əlverişli şərait yaratmışdır. Regionlarında mehmanxanalar, istirahət zonaları, əyləncə və idman mərkəzləri - Qafqaz Hotel Şəbəkəsi, Qəbələdə Qəbələ Turist Parkı, Qusarda möhtəşəm Şahdağ Qış-Yay Turist Kompleksi, Olimpiya İdman Kompleksi və s. yaradılması turizmin Azərbaycanda dövlət siyasətinin ən vacib prioritetlərindən biri olduğunu təsdiqləyir.

Son illərdə Bakıda 5 beşulduzlu mehmanxana, dördulduzlu, üçulduzlu hotellər tikilmiş, bölgələrdə otelçilik ilə bağlı çox böyük işlər görülmüşdür. Bakıda, eləcə də ölkəmizin ayrı-ayrı regionlarında biznes, istirahət, sağlamlıq, idman turizmini inkişaf etdirmək üçün irimiqyaslı layihələr həyata keçirilir. Azərbyacanda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün elektron

vizaların qısa müddətdə verilməsi üçün “ASAN viza” sistemi uğurla fəaliyyət göstərməyə başlamışdır.

2007-ci ildə Türkiyə Azərbaycan vətəndaşları üçün viza rejimini təktərəfli şəkildə ləğv etmişdir. 2019-cu ildə isə Azərbaycan Türkiyə vətəndaşları üçün anoloji addımı atmışdır. 2021-ci ilin aprel ayının 1-dən etibarən isə hər iki ölkənin vətəndaşları biometrik şəxsiyyət vəsiqəsilə səyahət etməyə başlamışlar. Araşdırma yeni şəxsiyyət vəsiqəsi ilə gediş-gəlişə icazənin verilməsinin ölkədə turizmin inkişafına, Türkiyədən gələn turistlərin sayına təsirini ölçmək üçün istifadə olunan sorğulara əsaslanır. Toplanan sorğu məlumatları turizmin inkişafına sosial-iqtisadi təsirlərinin qiymətləndirilməsini təmin edir.

**Azərbaycanla Türkiyənin turizminin inkişafı və mövcud vəziyyətin qiymətləndirilməsi**

Azərbaycanın beynəlxalq turizm əlaqələri sahəsində əsas strateji partnyorlarından biri Türkiyədir. Türkiyə 2019-cu ildə 51,8 milyon turistlə ən çox ziyarət edilən ölkədir [16]. Azərbaycan isə 2019-cu ildə 2,8 milyon turist qəbul etmişdir [1].

Türkiyə Statistika Təşkilatının açıqladığı məlumatlara görə, 2019-cu ildə Türkiyənin turizm gəliri 34,5 milyard dollar, adambaşına düşən turizm gəliri 647 dollar, turizm xərcləri 4,4 milyard dollar olmuşdur [15, s.19]. 2019-cu ildə Türkiyəyə gələn xarici vətəndaşların ən çox üstünlük verdiyi ölkələr - Bolqarıstan, Gürcüstan, Yunanıstan, İran və Almaniya olub.

Azərbaycanda statistik məlumatlara əsasən, 2019-cu ildə 3,5 mlrd.dollar [11], adambaşına düşən turizm gəliri 122 dollar, turizm xərcləri 174.7 milyon dollar olmuşdur. 2019-cu ildə Azərbaycana gələn xarici vətəndaşların sayına görə 5 ölkə – Rusiya, Türkiyə, İran, Gürcüstan və Səudiyyə Ərəbistanı üstünlük təşkil edir, gələnlərin 74%-i bu ölkələrin payına düşür.

Məlumat üçün qeyd edək ki, 2018-ci ildə Azərbaycana dünyanın 196 ölkəsindən 2849,6 min və ya əvvəlki illə müqayisədə 5,7 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dünyada baş verən COVİD-19 pandemiyasından əvvəl, 2019-cu il Azərbaycana gələn turistlərin sayına görə rekord ili olmuşdur. Həmin ildə Azərbaycana gələn xarici vətəndaşların sayı 3 milyondan artıq olmuşdur. Son illərdə ölkədə turizm sektoru 3,3 dəfə böyümüş, ölkənin bu sahədə potensialı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Apardığımız araşdırma isə göstərmişdir ki, 2010-cu ildə Azərbaycana gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ancaq 65 faizi turizm məqsədi ilə səfərlərini həyata keçirirdilərsə, 2019-cu ildə bu sahədə vəziyyət müsbətə doğru dəyişmişdir. Statistik məlumatların təhlilindən aydın olmuşdur ki, 2019-cu ildə Azərbaycana gələnlərin 90 faizi turizm məqsədi ilə səfərlərini reallaşdırmışdır. Xaricə gedən Azərbaycan vətəndaşlarının isə 2010-cu ildə 57 faizi, 2019-cu ildə isə 90 faizi turizm məqsədi ilə səfərlərini reallaşdırmışdır.

*Cədvəl 1*

***Türkiyədən Azərbaycana gələn turistlərin göstəriciləri***

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Turistlərin sayı | 314 476 | 288 620 | 313 341 | 301 924 | 291 499 | 316 628 |
| gecələmələrin sayı | 117 791 | 136 671 | 117 295 | 118 157 | 87 744 | 111 612 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmişlərin sayı | 67 562 | 68 169 | 69 627 | 71 478 | 60 765 | 74 709 |
| mehmanxana və mehmanxana tipli müəssisələrin göstərdikləri xidmətlərin məbləği, min manat | 1 437,7 | 2 257,4 | 2 291,0 | 1 535,0 | 8 117,1 | 12 214,0 |

*Mənbə: [1, s. 96].*

2019-cu ildə ölkəmizə gələnlərin 29 faizi Rusiya Federasiyası, 22 faizi Gürcüstan, 10 faizi Türkiyə, 8 faizi İran vətəndaşları olmuşdur [1, s. 23].

*Cədvəl 2*

***2018-2019-cu illərdə Azərbaycana turizm məqsədi ilə gələnlərin bölgüsü, min nəfər***

| | 2018 | 2019 | Faiz dəyişməsi,% |
|---|---|---|---|
| İstirahət | 1,042,417 | 1,164,010 | +11,7 |
| İşgüzar | 787,385 | 850,507 | +8,0 |
| Qohum, dost ziyarəti | 651,621 | 719,858 | +10,5 |
| Müalicə | 63,077 | 63,907 | +1,3 |
| Dini | 15,259 | 16,641 | +9,1 |
| Tranzit | 6,784 | 12,906 | +90,2 |
| Alış-veriş | 4,652 | 4,948 | +6,4 |
| Digər | 34,120 | 30,754 | -9,9 |
| Cəmi | 2,605,315 | 2,863,315 | +9,9 |

*Mənbə: [2, s.13].*

Azərbaycana gələn əcnəbilər əsasən, istirahət, işgüzar, dost və qohumları ziyarət etməyə gəliblər ki, bu da turizm məqsədli ziyarətçilərin 95 faizini təşkil edib. Ziyarətçilərin 40 faizindən çoxu istirahət, 30 faizi işgüzar, 25 faizi dost və qohumları ziyarət, 5 faizi isə digər məqsədlə gəliblər [2, s.13]. 2019-cu ildə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı əvvəlki illə müqayisədə 13,4 faiz artaraq 5567,7 min nəfər olmuşdur [9, s. 154].

Türkiyədən Azərbaycana gələn turistlərin səfərlərinin məqsədi daha çox Azərbaycanın tarixi, mədəniyyəti, mətbəxi, təbiəti ilə bağlı məlumatlar almaqdır. Azərbaycana gələn türkiyəli turistlər səfər üçün daha çox Bakıya üstünlük verirlər. Son illərdə isə Şəki, Gəncə, Şamaxı, Qəbələ, Quba, Qusar, İsmayıllı (Lahıca) və Lənkərana maraq artmışdır. Belə ki, Şəki 2016-ci ildə “Türk dünyasının mədəniyyət paytaxtı” elan edildiyi üçün, 2009-cu ildən bəri davam edən Qəbələdə keçirilən beynəlxalq musiqi festivalı bu bölgələrə turistlərin gəlməsinə səbəb olmuşdur. Araşdırmamız göstərir ki, turizm xidmətlərindən istifadə etmək arzusunda olan orta gəlirli Azərbaycan vətəndaşları isə əsasən müalicəvi turizm xidmətlərindən yararlanmaq üçün Rusiyanı, istirahət və əyləncə üçün isə Türkiyə turizm bazarını seçirlər. Azərbaycanın turizm cəlbediciliyinin artırılması və ölkənin bu sahədəki mövcud potensialından səmərəli istifadə olunması sahəsində yürüdülən dövlət siyasətinin əsas hədəflərindən biri də qeyri-neft sektorunda büdcə daxilolmalarının artırılmasıdır. Prezident İlham Əliyevin 20 fevral 2017-ci il tarixli “Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamı bu sahədə ötən illərdən tətbiq edilən islahatların uğurlu davamına təminat yaradıb. Sərəncamın tələblərinə uyğun xüsusi hərəkət zolaqlarının yaradılması təmin olunmuş, sərhəd buraxılış məntəqələrində keçidin sürətləndirilməsi və yarana biləcək sıxlığın aradan qaldırılması məqsədi ilə əlaqələndirmə işləri təkmilləşdirilmişdir. Xatırladaq ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara buraxılması hesabına Azərbaycana turist axınının artırılmasına əlavə imkanlar yaranacaqdır [10, s.53]. Digər tərəfdən qış turizminin inkişaf etdirilməsi üçün ölkəmizdə xeyli sayda dağ var. Bu dağlar Avropa və ABŞ-da olduğu kimi ilboyu turizm potensialına malikdir. Bu imkanlardan məqsədyönlü şəkildə istifadə edilməli, yay və qış turizmi ilə bağlı Türkiyə təcrübəsindən yararlanmalıyıq.

Bu baxımdan yaxın perspektivdə Azərbaycan-Türkiyə arasında turizm əlaqələrinin daha da inkişaf etdirilməsi üçün potensial imkanların aşkar edilməsi vacibdir.

Göründüyü kimi, dünya turizm sənayesində ilk yerləri bölüşən Türkiyənin turizm sahəsindəki təcrübələrinin Azərbaycana gətirilməsi ölkəmizdə bu sektorda beynəlxalq standartların tətbiq olunması, xidmətin keyfiyyətinin artırılması, ixtisaslı kadrların yetişdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

**Pandemiyanın turizmə təsiri**

COVID-19 pandemiyasının təsiri ilə Türkiyə və Azərbaycanın turizm sahəsi də itkilərlə üzləşmişdir. Belə ki, 2020-ci ildə Türkiyəyə 15,9 milyon turist sayı (69,14% azalma), turizm gəliri 12,1 mlrd. dollar (65,1% azalma), adambaşına ortalama xərc 762 dollar olmuşdur [18]. 2021-ci ildə 29, 3 milyon turist sayı, turizm gəliri 24,4 mlrd. dollar, adambaşına ortalama xərc 834 dollar olmuşdur [17, s. 2021]. 2022-ci ilin yanvar-may aylarında 12,7 milyon turist qəbul edib. Mədəniyyət və Turizm Nazirliyinin məlumatına görə, Türkiyəyə gələn turistlərin 11 milyon 301 min 602 nəfərini əcnəbi, 1 milyon 408 min 829 nəfərini isə xaricdə yaşayan türk vətəndaşları təşkil edib.

2020-ci ildə Azərbaycana isə 795,7 min nəfər əcnəbi və vətəndaşlığı olmayan şəxslər gəlmişdir ki, 519,4 mini turist məqsədilə gəlmişdir. 2020-ci il üzrə qarşılıqlı turizm xidmətlərinin dövriyyəsi 4,9 dəfə azalaraq 715,9 milyon ABŞ dolları təşkil etmişdir və turizm xidmətləri üzrə 107,5 milyon ABŞ dolları dəyərində kəsir yaranmışdır [12]. 2021-ci ildə qarşılıqlı turizm xidmətlərinin dövriyyəsi 22% artaraq 0.9 milyard ABŞ dolları təşkil etmişdir [13]. Amma turizm xidmətləri üzrə idxalın ixracı üstələməsi nəticəsində 248,9 milyon ABŞ dolları dəyərində kəsir yaranmışdır. 2022-ci ilin yanvar-mart aylarında 468170 min turist gəlmiş [3], 2022-ci ilin yanvar-mart aylarında qarşılıqlı turizm xidmətlərinin dövriyyəsi 2,9 dəfə artaraq 318 milyon ABŞ dolları təşkil etmişdir. Yanvar-mart aylarında turizm xidmətləri üzrə idxalın (196,8 mln.$) ixracı (121,3 mln.$) üstələməsi nəticəsində 75,5 milyon ABŞ dolları həcmində kəsir yaranmışdır. Bu dövrdə xaricə səfər edən Azərbaycan vətəndaşlarının sayı 2,7 dəfə, Azərbaycana gələn xarici vətəndaşların sayı isə 2,1 dəfə artmışdır [14].

Pandemiyadan öncə Azərbaycana səfər edən əcnəbilər arasında Türkiyə vətəndaşları ilk sıralarda yer alırdı. 2019-cu ildə Azərbaycandan Türkiyəyə 1 milyona yaxın turist getmiş, Türkiyədən Azərbaycana 317 min turist gəlmişdir ki, gedişlə gəlişin arasında 3 dəfəyə yaxın fərq vardır. Ölkəmizə gələn Türkiyə vətəndaşlarının sayının 2 milyona çatdırılması hədəflərimizdən olmalı, bu hədəfə çatmaqda isə iki ölkə arasında şəxsiyyət vəsiqəsi ilə gediş-gəlişə icazənin verilməsi və İkinci Qarabağ savaşından sonra Zəngəzur dəhlizi mühüm rol oynayacaqdır.

**Şəxsiyyət vəsiqəsi ilə gediş-gəlişin turizmin inkişafına təsiri**

2019-cu il sentyabrın 1-dən Azərbaycana 30 günədək müddətə səfər etmək istəyən Türkiyə Respublikasının etibarlı ümumvətəndaş pasportuna malik vətəndaşları üçün viza tələbi ləğv edilmişdir. Diplomatik, xüsusi və xidməti pasportu olan Türkiyə vətəndaşları isə Azərbaycana vizasız gedə və hər gedişdə 90 gün qala bilərlər. Azərbaycana səfər edən Türkiyə vətəndaşlarına viza tələbinin ləğv edilməsi həm sahibkarlıq, həm də turizm sahələrində ciddi irəliləyişlərə gətirib çıxarmışdır. Türkiyədən və başqa ölkələrdən Azərbaycana gələn turistlərin dövlət sərhədinin buraxılış məntəqələrindən sürətli keçidinin təmin olunması və viza sisteminin asanlaşdırılması üçün müvafiq normativ-hüquqi aktlar qəbul edilib, sürətləndirilmiş elektron vizanın verilməsi müddəti üç gündən üç saata endirilib.

İki ölkə vətəndaşları 2021-ci ilin aprelin 1-dən etibarən yeni tip şəxsiyyət vəsiqələri ilə qarşılıqlı səyahət həyata keçirə bilirlər. Vizasız qalma müddəti 30 gündən 90 günədək artırılmışdır. Vizanın əldə edilməsinin asanlığı, biznes və mədəni əlaqələri, Avropanın üçüncü ən böyük hava limanı olan İstanbul Atatürk Hava Limanı ilə Heydər Əliyev Beynəlxalq Hava Limanı arasında müntəzəm və nisbətən uyğun qiymətə uçuşların olması Azərbaycanda turizm sektorunun inkişafı nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir.

Yeni tip şəxsiyyət vəsiqələri ilə qarşılıqlı səyahətin asanlaşdırılmasını sorğu vasitəsilə qiymətləndirməyə çalışmışıq. Sorğuda həm azərbaycanlı, həm də türk vətəndaşları iştirak etmişdir. Sorğu Azərbaycan hava yolları və İstanbul beynəlxalq hava limanında, həmçinin hər iki ölkənin tur şirkətlərinin köməkliyi ilə 100 turist arasında keçirilmişdir. Azərbaycanda soruşulanların 58%-i qadınlar, 42%-i kişilər olmuşdur. Türkiyədə isə respondentlərin 46%-i qadınlar, 54%-i kişilər olmuşdur. Azərbaycanda respondentlərin əsas kütləsi – yaşı 24-dən 55-ə qədər və daha çox olan insanlar 61,5% civarında olmuşdur. Türkiyədə soğruda iştirak edən 24-55 yaş qrupuna aid respondentlər 59,5% təşkil etmişdir.




***Şəkil 1. Səyahətin məqsədi***

Azərbaycanda turistik səyahəti həyata keçirtmək istəmələri ilə bağlı suala 91,9%, Türkiyədə isə 95,9% səyahət etmək istədiklərini bildirmişdir. Səyahətin məqsədinə gəldikdə isə 48,6%, türk vətəndaşları, 82,4% (Şəkil 1) Azərbaycan vətəndaşları istirahət və əyləncəni seçmişlər. Azərbaycan-Türkiyə arasında yeni nəsil biometrik şəxsiyyət vəsiqəsi ilə gediş-gəlişə icazənin verilməsinin səyahətə təsirinə gəldikdə isə 86,5% türk respondentləri, 71,8% Azərbaycan respondentləri müsbət təsir etdiyini qeyd etmişlər.

İki ölkə arasında gediş-gəlişin asanlaşdırılması sualına cavabı Azərbaycan vətəndaşlarının 47,3%-i, Türkiyə vətəndaşlarının isə 40.5% iqtisadi və ticari əlaqələrin inkişafına, ölkə vətəndaşlarının 18,2%-i, Türkiyə vətəndaşlarının 29,7%-i isə türkdilli ölkələri də bu addımın atılmasına təşviq edəcəyini düşünürlər (Şəkil 2). Aviabiletlərin qiymətləri ilə bağlı sualı isə sorğuda iştirak edənlərin 85,2%-i “qane etmir” cavablandırmışlar.




***Şəkil 2. Gediş-gəlişin asanlaşdırılması***

Sorğunun nəticəsinə görə hər iki ölkə arasında gediş-gəlişin asanlaşdırılması, həm "Türk Hava Yolları", həm də "AZAL"-ın Azərbaycan və Türkiyə arasındakı aviabiletlərinin ucuz olması Türkiyədən Azərbaycana gələn turistlərin sayının artmasında çox əhəmiyyətli dərəcədə rol oynaya bilər.

### *Nəticə*

2019-cu ildə Azərbaycanın Türkiyə vətəndaşları üçün vizanı ləğv etməsi, 2021-ci ilin aprelindən yeni nəsil biometrik şəxsiyyət vəsiqəsi ilə gediş-gəlişə icazənin verilməsi, Zəngəzur dəhlizinin açılması və s. postpandemiya dönəmində ölkəmizə Türkiyədən gələn turistlərin sayının artmasına səbəb olacaqdır.

Türkiyə turizm sahəsindən hər il 30-40 milyard dollar gəlir əldə edir. Ölkəmizdə isə bu vəsait 3-4 mlrd.dollardır. Rəqəmlərin təhlili göstərir ki, ölkəmizdə bu sahədə hələ də bir sıra problemlər mövcuddur, göstərilən xidmətin keyfiyyəti, infrastruktur istənilən səviyyədə deyil, turizm məhsulu üzrə qiymətlər qonşu ölkələrlə müqayisədə bahadır. Buna baxmayaraq mövcud problemlərin həlli ilə bağlı ölkə rəhbərliyi çox böyük işlər görür. Azərbaycan ilə Türkiyə arasında 2021-ci il iyunun 15-də Şuşa şəhərində imzalanan Bəyannamə qarşıya qoyulan vəzifələrin icrası üçün katalizator rolunu oynayacaqdır. Belə ki, birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti sahəsində əməkdaşlığın dərinləşdirilməsi turizmin inkişafına da töhfə verəcəkdir. Bu isə yaxın gələcəkdə Azərbaycana Türkiyədən gələn turistlərin sayının 2 milyona çatmasına ssəbəb olacaqdır.

### ƏDƏBİYYAT


1. Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm. 2020, s. 21- 23.
2. Azərbaycan Dövlət Turzim Agentliyi (ADTA, 2019). İllik turizm statistikası 2019, s.13
3. Azərbaycan Dövlət Turzim Agentliyi (ADTA, 2022). Gəlmə sayı. https://tourism.gov.az/uploads/documents/2022_statistika/may_2022.pdf
4. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi. Şuşa: 15 iyun 2021-ci il. https://president.az/articles/52122. Erişim: 15.07.2021
5. Azərbaycan və Türkiyə arasında iqtisadi münasibətlər - yeni perspektivlər http://azrnews.az/azerbaycan/1170-azrbaycan-v-turkiy-arasnda-iqtisadi-munasibtlr-yeni-perspektivlr.html. Erişim: 23.04.2021
6. Atakişiyev R. Azərbaycan-Türkiyə iqtisadi əlaqələri son illərin təhlilində. "Eco Vision". Bakı: 2015.-№ 22.-S.50-52.
7. Bayramova A. Azərbaycan-Türkiyə iqtisadi əlaqələri https://azertag.az/xeber/Azerbaycan_Turkiye_iqtisadi_elaqeleri___Tehlil-1662839. Erişim: 12.01.2022
8. Cahangirli C. Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri. Elmi red.: A.N.Abbasbəyli.- Bakı: Araz, 2006, 109 s.
9. Hüseyn A. Turizm inkişafında hava nəqliyyatının rolunun artırılması imkanları. "Kooperasiya" elmi-praktiki jurnal, №4(59) - 2020. s. 154-160
10. Hüseynov H. Azərbaycan və Türkiyə Respublikaları arasında turizm əlaqələrinin inkişaf istiqamətləri. Bakı: 2019, s. 53-62
11. Mərkəzi Bank (MB, 2019). 2019-cu il üzrə Azərbaycan Respublikasının tədiyyə balansı. https://uploads.cbar.az/assets/4d1c618e0edb0246f458d9421.pdf. Erişim: 18.02.2022
12. Mərkəzi Bank (MB, 2020). 2020-ci il üzrə Azərbaycan Respublikasının tədiyyə balansı. https://uploads.cbar.az/assets/97aa174a150aff7358f5aedbc.pdf. Erişim: 29.04.2021
13. Mərkəzi Bank. (MB, 2021). 2021-ci il üzrə Azərbaycan Respublikasının tədiyyə balansı. https://uploads.cbar.az/assets/6a45b5ea5b5a1e59aa8a126b1.pdf. Erişim: 02.08.2022

14. Mərkəzi Bank (MB, 2022). 2022-ci ilin I rübü üzrə Azərbaycan Respublikasının tədiyyə balansı.https://uploads.cbar.az/assets/b79567946b505dde9e63acb5e.pdf.Erişim:11.05.2022
15. TURSAB (2020). Covid-19 sürecinde Türkiye ve Dünya Turizmi degerlendirilmesi. Aralık 2020. s. 19. https://www.tursab.org.tr/assets/assets/uploads/arastirmalar/covid-19-surecinde-turkiye-ve-dunya-turizmi.pdf. Erişim: 11.06.2021
16. TUİK (2019). Turizm İstatistikleri, IV.Çeyrek: Ekim-Aralık ve Yıllık, 2019. https://data.tuik.gov.tr/Bulten/Index?p=Tourism-Statistics-Quarter-IV:-October-December-and-Annual,-2019-33669. Erişim: 08.09.2020
17. TUİK (2021). Turizm İstatistikleri, IV.Çeyrek: Ekim-Aralık ve Yıllık, 2021. https://data.tuik.gov.tr/Bulten/Index?p=Turizm-Istatistikleri-IV.Ceyrek:-Ekim-Aralik-ve-Yillik,-2021-45785. Erişim: 28.01.2022
18. Turizm istatistikleri genel degerlendirme 2020 (TİGD, 2020). https://yigm.ktb.gov.tr/Eklenti/81939,3103turizmistatistikleri2020-4pdf.pdf
19. UNWTO Silk Road action plan 2014 / 2015 http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/dig-r-x-b-rl-r/item/19475-azaerbaydzan-n-tarikhi-ipaek-yolutaedzrubaesi-vae-perspektivlaeri

***Арзу Алим кызы Гусейн***
***к.э.н., доцент, заведующий кафедрой***
***«Менеджмент» Азербайджанский Университет***
***Туризма и Менеджмента***
***E-mail: a.huseyn@atmu.edu.az***

## Влияние отмены виз между Азербайджаном и Турцией на развитие туризма

***Резюме***

**Целью исследования** - является изучение влияния отмены визы между Турецкой Республикой и Азербайджанской Республикой, а также выдачи разрешения на поездку с биометрической идентификационной картой на развитие туризма.

**Методология исследования** - при подготовке статьи использовались сравнительный анализ, методы обобщения, проведен опрос среди туристов в аэропортах Баку и Анкары и проанализированы полученные результаты.

**Практическая значимость исследования** – полученные результаты могут быть использованы для решения практических задач, связанных с развитием туризма между двумя странами.

**Результаты исследования** - отмена Азербайджаном виз для граждан Турции в 2019 году и выдача с апреля 2021 года разрешений на поездки с биометрической ID-картой нового поколения привели к увеличению числа туристов, прибывающих в нашу страну из Турция.

**Оригинальность и научная новизна исследования** - это первая исследовательская работа, проведенная в этой области после разрешения на поездки между Азербайджаном и Турцией с новым удостоверением личности. Оценено влияние поездок между двумя странами на развитие туризма. Был проведен опрос, чтобы определить, как эти меры влияют на количество туристов из Турции в Азербайджан. Путем анализа опроса и собранных данных была определена роль шагов, предпринятых обоими государствами в развитии туристического сектора, и даны научно обоснованные предложения и рекомендации по развитию этого сектора.

***Ключевые слова: биометрическая идентификационная карта нового поколения, туризм, пандемия, доходы от туризма, затраты.***

***Arzu Alim Huseyn***
***PhD in Economics, Associate Professor, head of the «Management» chair, Azerbaijan Tourism and Management University***
***E-mail: a.huseyn@atmu.edu.az***

## The impact of visa cancellation between Azerbaijan and Turkey on the development of tourism

***Summary***

**The aim of the study** is to examine the effect of visa cancellation and issuance of travel permit with biometric identity card on the development of tourism between the Republic of Turkey and the Republic of Azerbaijan.

**Methodology of the research** - comparative analysis, generalization methods were used in the preparation of the article, a survey was conducted among tourists at Baku and Ankara airports and the results were analyzed.

**Practical significance of the research -** the results obtained can be used to solve practical problems related to the development of tourism between the two countries.

**Results of the study -** It was determined that the cancellation of visas for Turkish citizens by Azerbaijan in 2019 and the issuance of travel permits with a new generation biometric identity card as of April 2021 led to an increase in the number of tourists coming to our country from Turkey.

**The originality and scientific novelty of the research -** It is the first research study in this field after the permission to travel between Azerbaijan and Turkey with a new identity card. The effect of mutual travel between the two countries on the development of tourism was evaluated. A survey was conducted to identify how these measures affect the number of tourists coming from Turkey to Azerbaijan. By analyzing the collected survey data, the role played by the steps taken by both states in the development of the tourism sector was determined and scientific-based suggestions were made for the development of this sector.

***Key words: new generation biometric ID card, tourism, pandemic, tourism income, expenses.***